# TECHNOLOGY OF PHYSICAL TRAINING IN PRIMARY CLASSES USING ACTIVE (INTERACTIVE) METHOD

**Baloglan Guliyev**

Azerbaijan State Pedagogical University,
PhD in pedagogy, associate professor
E-mail: quliyev-1937@mail.ru
https://orcid.org/0000-0002-3721-3670

**Abstract.** The paper examines active and interactive methods used during the organization of the teaching process are mentioned, their purposes and tasks are analyzed, and opportunities for their implementation are presented. Scientific findings of the application of interactive methods in the physical training process of young aged students are investigated. The globalization process has led to the creation of new education models and ensured the integration of traditional education forms into new education models. The development of training with active and interactive methods and the application of the new pedagogy-psychology mechanism in the physical training process are considered as the main tasks. It enables the teacher to be competent in the field of physical training and to have certain quality indicators, and it enables the understanding of the nature of the facilitation process.

**Keywords:** active (interactive) method, primary school, physical education, facilitation, psychomotor activity.

**DOI:** 10.30546/2709-2488.2.2024.101.
**To cite this article:** Guliyev B. (2024). Technology of physical training in primary classes using active (interactive) method. *Journal of Preschool and Primary Education*, Vol. 247, Issue II, pp. 9-19.
**Article history:** received – 18.04.2024; accepted – 15.05.2024.

# İBTİDAİ SİNİFLƏRDƏ FİZİKİ TƏRBİYƏ TƏLİMİNİN FƏAL (İNTERAKTİV) METODLA TƏŞKİLİ TEXNOLOGİYASI

**Baloğlan Quliyev**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: quliyev-1937@mail.ru
https://orcid.org/0000-0002-3721-3670

**Annotasiya.** Məqalədə dərs prosesinin təşkili zamanı istifadə olunan fəal və interaktiv metodlardan bəhs olunur, onların məqsəd və vəzifələr reallaşdırılması imkanları təhlil edilir. Kiçik yaşlı məktəblilərin fiziki tərbiyə prosesində interaktiv metodların tətbiqinin səciyyəvi əlamətləri araşdırılır. Qloballaşma prosesi yeni təhsil modellərinin yaradılmasına səbəb olmaqla ənənəvi təhsil formalarının yeni təhsil modellərinə inteqrasiyanı təmin etmiş, təlimin səmərəliliyində müasir pedaqoji texnologiyalardan istifadəni zərurətə çevirmişdir. Təlimin fəal və interaktiv metodlarla təşkili yeni pedaqoji-psixoloji mexanizminin fiziki tərbiyə prosesində tətbiqi başlıca vəzifələrdən sayılır. Tədqiqat işi müəllimin fiziki tərbiyə sahəsində səriştəliliyinə və hansı keyfiyyət göstəricilərinə sahib olmasına istiqamət verir, fasilitasiya prosesinin mahiyyətini, onun dərk edilməsində hansı amillərin nəzərə almasını təqdim edir.

**Açar sözlər:** fəal (interaktiv) metod, ibtidai sinif, fiziki tərbiyə, fasilitasiya, psixomotor fəaliyyət.

**DOI:** 10.30546/2709-2488.2.2024.101.
**Məqaləyə istinad:** Quliyev B. (2024). İbtidai siniflərdə fiziki tərbiyə təliminin fəal (interaktiv) metodla təşkili texnologiyası. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (247), səh. 9-19.
**Məqalə tarixçəsi:** göndərilib – 18.04.2024; qəbul edilib – 15.05.2024.

## Giriş / Introduction

Azərbaycan Respublikasının təhsil sahəsində həyata keçirilən islahat proqramı fiziki tərbiyənin qarşısında interaktiv məzmun, təhsil strategiyası, nailiyyətləri qiymətləndirmə, sağlamlığın möhkəmləndirilməsi və reabilitasiyası üzrə strateji vəzifələr qoymuş, onların məqsədəuyğun şəkildə reallaşdırılması tələbini irəli sürmüşdür. Təhsilin keyfiyyətini yüksəltmək məqsədilə müasir pedaqoji texnologiyaların tətbiqinə cəhd edilir, məqsədyönlü müxtəlif təhsil tədbirləri həyata keçirilir. Təhsilin Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və inkişafına istiqamətlənməsi fiziki tərbiyənin məzmununun zənginləşdirilməsi, müdafiə gücünün artırılmasına yönəldilməsinə səbəb olmuşdur. Bunların həyata keçirilməsi yeni fiziki tərbiyə proqramlarının, dərs və metodik vəsaitlərin hazırlanmasını tələb edir. Fiziki tərbiyə üzrə mövcud məzmun və fəaliyyət standartları əsas mahiyyət olaraq cəmiyyətin inkişafına, məktəblilərin fiziki mədəniyyətinin formalaşmasına istiqamətlənmiş məqsəd, məzmun xətləri, fiziki hazırlıq, qiymətləndirmə və tədris normativlərini təqdim edir. Həmin tədbirlər üzrə nailiyyətlər nəzarət sisteminin göstəricisi kimi tədris normativlərinin nəticəsini müəyyənləşdirir. Bununla yanaşı fiziki tərbiyə vasitələrinin düzgün təşkili üçün fəal-interaktiv metodla təlimin təşkili və idarə olunması mexanizmlərinin tətbiqi əsas vəzifə olaraq qarşıya qoyulur. Bütün bunlara inkişafı təmin edən idraki (koqnitiv), psixomotor (hərəki), affektiv (hissi) bacarıqları və texnologiyaları yaradıcılıqla mənimsəyib tətbiq edərkən yiyələnmək mümkündür. Fiziki tərbiyədə interaktiv məzmunun reallaşdırılmasında yaxın fənlərlə bərabər, sağlamlıq-gigiyena və gün rejminə aid həyati əhəmiyyətli bilik və bacarıqların, fiziki vərdişlərin aşılanması kimi praktik tədbirlərin icrası reallığa çevrilir. Şəxsiyyətin inkişafına şərait yaradılması, şagirdlərdə həyati bacarıqların formalaşdırılması onların davamlı fəaliyyətə hazırlanması ilə bağlıdır. Ona görə də kurikulumlarda əks olunmuş təlim nəticələri ardıcıllıqla verilir ki, onların vasitəsi ilə şagird şəxsiyyətinin formalaşması və inkişafını izləmək mümkün olsun.

## Əsas hissə / Main part

Fiziki tərbiyənin fəal (interaktiv) metodla təşkili müəllimin səriştəliliyinə və aşağıdakı keyfiyyət göstəricilərinə yiyələnməsinə geniş imkanlar açır:

- müasir tələblərə uyğun elmi-nəzəri, metodik və praktik hazırlıq;
- müasir düşüncəli, çevik, dözümlü, iradəli və əməksevər olmaq;
- təcrübəsini fəaliyyətində tətbiq etmək bacarığına malik olmaq;
- etik, estetik, mənəvi-əxlaqa, yüksək mədəniyyətə yiyələnmiş şəxsiyyət olmaq.

Fiziki tərbiyənin təşkilində təlimin 3 formasından istifadə müşahidə olunur:

1) passiv-ənənəvi metod; 2) fəal metod; 3) interaktiv metod (daha fəal). Təlimin təşkili zamanı müəllimlər bir çox hallarda 1-ci və 2-ci, nadir hallarda isə 3-cü formaya üstünlük verirlər. Passiv-ənənəvi metoda əsaslanaraq təlim prosesini təşkil edən müəllimlər bir tərəfli fəaliyyət göstərir, aparıcı rolunda çıxış edirlər. Belə yanaşmada öyrənənin fəaliyyəti gözə çarpmır, dərs prosesi müəllim tərəfindən nəzarətdə saxlanılaraq idarə edilir. Bu təlim metodunda demokratik yanaşma mövcud deyil, öyrənən öyrədənin göstərişlərinə tabe olmalı, onun tapşırıqlarını danışıqsız icra etməlidir. Sərbəst fəaliyyət göstərmək məqbul sayılmır, idraki fəaliyyətin təşkili diqqət mərkəzində olmur, hafizəyə, əzbərçiliyə üstünlük verilir. Bu, bir tərəfli passiv metod kimi qiymətləndirilir (sxem 1.). Ə.Əlizadənin ənənəvi didaktik sistemin əsas paradiqmasını xatırlayaq: "Müəllim subyektdir, şagird obyektdir – ənənəvi didaktik sistemin bütün postulatları (müəllim öyrədir, şagirdlər öyrənirlər, müəllim danışır, şagirdlər susurlar, müəllim hər şeyi bilir, şagirdlər isə heç nə bilmirlər, müəllim cəza verir, şagirdlər tabe olurlar və s.) bu konseptual model üzərində qurulub... müəllim sinifdə bir növ hakimi-mütləqdir. Sinifdə bütün problemləri yalnız və yalnız müəllim həll edir. Onun səsi həlledicidir. Şagird hətta məşvərətçi səsə də malik deyil..." [Əlizadə Ə., 2010].

K.M.Asadpour dissertasiya tədqiqat işində yazmışdır: "Müasir dövr dəyişən şəraitə tez uyğunlaşmağı bacaran, çevik, müstəqil mühakimə qabiliyyətinə, sərbəst düşünmə tərzinə, məntiqi və tənqidi təfəkkürə malik şəxsiyyət formalaşdırmağı tələb edir. Təbii ki, müasir şəxsiyyəti yalnız hafizənin gücləndirilməsinə və informasiya toplanmasına yönəlmiş, real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyildir, müasir pedaqoji texnologiyaların, fəal təlim metodlarının tətbiqi də məhz bu zərurətdən irəli gəlir" [Asadpour K., 2012].

Fəal təlimdə şagird passiv dinləyici kimi çıxış etmir, fəaliyyət göstərən şəxs rolunu oynayır, öyrənən passiv deyil, bərabər və qarşılıqlı fəaliyyət göstərir, öyrədənlə eyni hüquqa malikdir. Bu təlim metodu ilə fiziki tərbiyədən nəzəri və praktik məşğələlərin demokratik idarə olunması və gedişi ön plana çəkilir. Təlim müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti əsasında tənzimlənir və fəal metod adlandırılır (sxem 2).

İnteraktiv təlim metodu öyrədən və öyrənənlərin qarşılıqlı fəaliyyətinin idrakı və onun yüksək səviyyədə idarə olunmasının təşkili formasıdır. Bu metod problemli vəziyyətin yaradılması, şagirdin öz biliyini nümayiş etdirməsi üçün axtarıcılıq istiqamətinin fəallığını təmin edir. Eyni zamanda müstəqil olaraq biliklərə yiyələnmək üçün təlim-tərbiyə və inkişaf mühitini tənzimləmə mahiyyəti daşıyır. Bu metodla tədris prosesinin təşkili bir sıra üstün cəhətlərinə görə passiv-ənənəvi və aktiv təlim metodlarından əhəmiyyətli dərəcədə fərqlənir. Əgər müəllim təlimi ənənəvi metodla təşkil edərkən "mütləq hökmdar", "direktiv"

göstərişlər sahibi rolunda fəaliyyətdə olursa, fəal təlimdə isə demokratik şəraitdə müxtəlif növ oyunların və fiziki hərəkət məşğələlərinin idarə edilməsi və gedişi vacib əhəmiyyət kəsb edir. İnteraktiv təlim prosesində isə öyrədən və öyrənənlər arasında qarşılıqlı təsir daha geniş formada həyata keçirilir. Müəllimin vəzifəsi fiziki tərbiyənin vacibliyini şagirdlərə öyrətməkdir. O, qabaqcadan məşğələnin geniş planını hazırlayır, interaktiv tapşırıqları, sualları, disskusiya və mübahisə xarakterli işlərin həllinə yönəlir. Plan yeni tədris materiallarının, fiziki tərbiyə üzrə yeni bilik, bacarıq və vərdişlərin aşılanmasına, əvvəllər mənimsənilmiş hərəki biliklərin möhkəmlənməsinə, hərəki bacarıqların dərinləşdirilməsi və hərəki vərdişlərin aşılanmasına xidmət edir. Qeyd etməliyik ki, interaktiv təlimin tətbiqi isə yeni əlverişli təsir mühiti yaradır, təlim iştirakçılarının bir-birinə daha səmimi olmasını təmin edir, cəmiyyət üçün daha zəruri bilik, bacarıq və vərdişləri aşılayır.

Unutmaq olmaz ki, interaktiv təlim şagirdlərin idrak fəaliyyətinin təşkili, idarə olunması, milli-ümumbəşəri adət-ənənələrə söykənməsi, demokratik üslubda keçirilməsi, qazanılmış bilik, bacarıq və vərdişlərin dərk edilməsi, onların tətbiqi, dəyərləndirilməsi və “təfəkkür məktəbi”nin məcmusudur. Bunların təlim standartlarına və təhsil strategiyalarına uyğunluğu müəllim və şagirdlərin birgə fəaliyyəti ilə yanaşı, digər birləşmə, sinif, yarımsinif şagirdlərinin bir-biri ilə fəaliyyətinin əməkdaşlıq şəraitində qurulmasına zəmin yaradır. Təlimin müəllim-şagird, şagird-müəllim və şagird-şagird formasında təşkili fəaliyyətin üç tərəfli qarşılıqlı təsir formasında tənzimlənməsi deməkdir (sxem 3.).

İnteraktiv təlim metodunun mahiyyətini aşağıdakı kimi səciyyələndirmək olar:

1) mətn üzrə problemli vəziyyətin yaradılması imkanına malik olması;

2) təlimə şüurlu cəlb olunma şəraitinin təşkilinə istiqamətlənməsi;

3) təlimin nəzəri və praktik nöqteyi-nəzərdən dəyərli və önəmli olması;

4) tədrisə marağın artırılması, müstəqil düşünmə və nəticə çıxarmaq, tədqiqatçılıq qabiliyyətinin inkişafına istiqamətlənməsi.

Bütün bunlar təbii və psixomotor proses kimi fiziki tərbiyənin qabaqcadan kompleks planlaşdırılması, şagirdlərin tədqiqatçılıq və yaradıcılıq qabiliyyətinin inkişaf səviyyəsini nəzərə almasını bir daha aktuallaşdırır.

Fiziki tərbiyənin fəal (interaktiv) metodla təşkili zamanı məlum olur ki, bu metod vasitəsi ilə reallaşan müstəqil tədqiqat prosesində şagirdlərin idrakı fəallığı yüksəlir, onlar zəruri bilik və bacarıqlara yiyələnirlər.

Şagirdlər araşdırma və yaxud yaradıcılıq fəaliyyətinə istinad yolu ilə (birgə fəaliyyətə əsaslanaraq) bilik və bacarıqların mənimsənilməsi vasitələrini aşkara çıxarır, təhlil və müqayisə edir, ümumiləşdirir, qənaətə gəlir, nəticə çıxarırlar. Məqsəd və vəzifələrin icrası üçün şagirdlərin müstəqil tədqiqat fəaliyyətinə şəraitin yaradılması mühüm əhəmiyyət daşıyır. Müəllim və şagirdlərin birgə əməkdaş-

lıq şəraitində işləməsi, nəticədə, yeni bilik, bacarıq və vərdişlərin əldə olunması yollarının aşkarlanması vacib amil sayılsa da, onların təşkili üçün təlimdə problemli vəziyyətin (problemli-dialoji təlim) yaranmasına da xüsusi ehtiyac duyulur. Problem situasiyaların yaradılması təlimdə şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsinə, bacarıqlarının müstəqil inkişafına, öyrədən və öyrənənlərin fəaliyyətinin tənzimlənməsinə real imkanlar açır, onların çevikliyini, sürətini artırır.

Fiziki tərbiyənin təbliği, sağlamlıq və hərbi-tətbiqi əhəmiyyəti, idman fəndlərinin icrası texnikası üzrə nəzəri sualların verilməsi, praktik tapşırıqların yerinə yetirilməsi şagirdlərin təfəkkür potensialını artırır, onları düşünməyə sövq edir. Belə ki, problemli situasiyanın yaradılması şagirdlərin müstəqil tədqiqat fəaliyyətini, idraki fəallığını yüksəldir, əməkdaşlıq şəraitində birgə fəaliyyətlərin yaranması nəticəsində onlarda yeni bacarıq və vərdişlər formalaşdırır. Bütün bunlar nəticə etibarı ilə kiçik məktəbyaşlı uşaqların hərtərəfli fiziki inkişafına, eyni zamanda onların fiziki mədəniyyətinin formalaşmasına müsbət təsir göstərir.

**Müəllim və məktəblilərin qarşılıqlı təsiri formaları üzrə sxemlər**

**Sxem 1. Passiv metod**




**Sxem 1.2. Fəal metod**



**Sxem 1.3. İnteraktiv metod**




Fəal və interaktiv metodla təşkil olunan təlim araşdırmalar, təhlillər, ümumiləşdirmələr aparmağı tələb edən pedaqoji prosesdir. Buna görə də fəal təlim prosesində hər bir müəllim məsuliyyət daşımalı, təmkinli və səbirli olmalı, şagirdlərin fikrinə hörmətlə yanaşmalı, onları diqqətlə dinləməli, emosiyalara qapılmamalıdır. Fiziki tərbiyə təliminin səmərəli təşkili birgə işləmək, nəticə çıxarmaq, ideya və təkliflər irəli sürmək, fəaliyyətlərin qarşılıqlı təsirinə əsaslanmaq nəticəsində mümkündür.

Fəaliyyətin tənzimlənməsində fəal təlim metodlarını "problemli-dialoji", "problemli" təlim adlandıranlar da vardır. Fəal və interaktiv təlim metodunun müəllim-şagird əməkdaşlığı və prosesin digər iştirakçıları ilə fəal əməkdaşlıq şəraitində həyata keçirilməsi təmin olunur. Müəllim-şagird əməkdaşlığı kontekstində münasibətlərin lazımi səviyyəyə çatdırılmasında müəllim həlledici rola malikdir.

Fəal təlimin pedaqoji-psixoloji xüsusiyyətlərindən biri də təlimə yeni yanaşmadır. Bu metodun səciyyəvi xüsusiyyəti idraki proseslərin fəallaşdırılması, müstəqil yaradıcılıq fəaliyyətinin ön plana keçməsidir. Tədqiqat səciyyəli təlim şagirdlərdə fəallıq yaradır. Bu, bilik və bacarıqların mənimsənilməsində şagirdlərin aparıcı rol oynaması, təlimdə eynihüquqluluğun təmin edilməsi, müəllim və şagirdlərin funksiya və mövqelərinin demokratikləşdirmə hesabına dəyişdirilməsidir. Bunlar şagirdə imkan verir ki, müstəqil tədqiqat fəaliyyətində olsun, topladığı faktik tədris materiallarını təhlil və müqayisə edə bilsin, sərbəst ümumiləşdirmələr aparsın, digər şagirdlər ilə birgə fəaliyyət göstərə bilsin. Sinif müəllimi ixtisas fənn müəllimi ilə qarşılıqlı əməkdaşlıq şəraitində və birgə işləyə bilsin, alınan nəticələrə bərabərhüquqlu şəxs kimi sahib olsun. Burada şagirdlərin tədqiqatçı kimi mövzunun məqsədi, mahiyyəti və vəzifələrini düzgün və şüurlu surətdə dərk etməsi, fəallaşması, tapşırıq və göstərişləri müdaxilə olmadan yaradıcılıqla icrası başlıca şərtdir. Bu vaxt onun mövqeyi işi nə məqsədlə icra etdiyi, nəyi, nə üçün mənimsəməli və hansı yolla həyata keçirməli olduğundan ibarət olmalıdır. Yekun nəticə isə təlim nəticələrinin nə dərəcədə, hansı səviyyədə olma-

sına aydınlıq gətirməlidir. Prosesdə qazanılmış müsbət dəyərlər, buraxılmış nöqsanlar və bunların baş vermə səbəbləri aşkarlanmalı və gələcək təlim fəaliyyəti üçün çıxış yolları araşdırılmalıdır.

Müəllimin təlimdə əsas vəzifəsi mövzunun qavranılması üçün şagirdlərə istiqamət vermək, yol göstərmək, bələdçilik etməkdir. Onun bələdçi kimi funksiyası təlim üçün əlverişli şərait yaratmaqdan ibarət olmalıdır. Müəllim öyrənməyi öyrətməklə, öz nüfuzundan sui-istifadə etməməli, sadəlik, təvazökarlıq və təmkin nümayiş etdirməlidir. Onun cəmiyyətdə nüfuzlu bir şəxs kimi vəzifəsi öyrənənlər üzərində "hökmdar"lıq etməməkdir. Müəllimin fəaliyyətinə şagirdlərlə ardıcıl, mütəşəkkil təhsil əməkdaşlığı etmək, məşğələləri sistemli və ardıcıl təşkil etməklə fiziki tərbiyə üzrə təlim nəticələrinə nail olmaq, tapşırıqların dəqiq icrası daxildir. Müəllim fəal təlim şəraiti yaratmağa, şagirdləri müstəqil tədqiqat aparmağa istiqamətləndirməyə, problemli vəziyyət yaratmağa, bilik və bacarıqların möhkəmliyinə məsuliyyət daşımalıdır. Qeyd olunanlara nail olmaqdan ötrü müəllim təhsil və özünütəhsildə müasir tələbatları nəzərə almalı, öz üzərində çalışmalı, mütaliə etməli, təhsildəki yenilikləri mənimsəməli, treninqlərdə fəal iştirak etməli, fikir mübadiləsi aparmalı, qabaqcıl təcrübəni öyrənməli, təhlil etməli, novatorluğu öz iş fəaliyyətində əsas götürməlidir. Bir vətəndaş kimi bilik və bacarıqlarını həmkarlarına çatdırmağa, valideynlərə kömək göstərməyə, izahat işləri aparmağa borcludur. Müəllim bələdçi roluna yiyələnməklə kifayətlənməməli, onların tətbiqini də bacarmalı, fasilitasiya prosesinin mahiyyətini dərk etməli, aşağıdakı amilləri nəzərə almalıdır:

- fasilitasiya bir proses kimi yönəldici, köməkçi sualların səmərəli tətbiqinin köməyi ilə disskusiyaların təşkili və şagirdlərin fəallaşdırılması prosesindən ibarətdir;
- fasilitasiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, yeni bilik müəllim tərəfindən deyil, şagirdlər tərəfindən aşkarlanır;
- fasilitatorun mövqeyi onun əsas funksiyası düşüncəni inkişaf etdirmək və onu lazımi məcraya yönəltməkdən ibarətdir;
- fasilitasiya yanaşmasının əsas məqsədi şagirdlərin öyrənmək və yaratmaq tələbatlarını tam ödəmək, onların öz potensialını həyata keçirə bilməsi üçün şərait yaratmaqdır " [Əhmədov A., Abbasov Ə., 2008].

İnteraktiv təlimdə başlıca şərtlərdən biri də müəllimin ümumtəlim nəticələrinə müvəffəq olması üçün şagirdlərin hörmətini qazanmasıdır. Dostluq, mehribançılıq əsasında qarşılıqlı hörmətin, etibarın yaranması da mütləqdir. Yeni yanaşmada demokratikləşməyə riayət edilməsi, fərdi qarşılıqlı münasibətlərin yaranması, şərait az rol oynamır. Müəllimin təlimdə və təlimdənkənar vaxtlarda şagirdlərə humanist mövqedən yanaşması, uşaqlara qayğı, diqqət göstərməsi də interaktiv prosesin hədəflərindəndir.

Psixoloji təqiqatlarda şagirdin bir şəxsiyyət kimi ailə və məktəbin çoxşaxəli münasibətlər sistemində formalaşması, inkişaf, "müəllim-şagird" münasibətlərinin həmin çərçivədə formalaşdırılmasının faydalı olduğu göstərilir. Müəllimə şagirdlərin gözü ilə baxanda münasibətin humanistləşdirmə şəraitində onun sosial-psixoloji portreti aşağıdakı çizgilərlə təsvir edilir:

1) müəllim hər bir şagirdə hörmətlə yanaşır, onun insan məziyyətlərini yüksək dəyərləndirir;

2) şagirdin taleyi ilə yaxından maraqlanır;

3) onların qabiliyyət və istedadına optimistcəsinə inanır;

4) şagirdlərlə onların partnyoru kimi əməkdaşlıq edir;

5) stimullaşdırmaq yolu ilə onlarda daxili motivlər yaradır;

6) şagirdlərin nöqsanlarına dözümlüdür;

7) ünsiyyət mədəniyyəti seçimlidir [Əlizadə Ə., 2010].

Görkəmli alim Ə.Ə.Əlizadənin fikrinə istinad edərək qeyd etmək olar ki, müəllimi həmişə ulu sözlərlə səciyyələndiriblər. Şərq mədəniyyətində onun imici xüsusilə önəmli olub. Müəllimin şəxsiyyətinə başlıca tərbiyə amili kimi baxıblar. Lakin şagirdin obyekt kimi dəyərləndirildiyi bir şəraitdə müəllimlə şagird münasibətlərində həmişə nə isə bir "Çin səddi" olub. "Müasir təhsil konsepsiyası onların münasibətlərinə soyuqluq gətirən, yadlaşma üçün öz-özünə şərait yaradan bu səddi dağıdıb və təhsilin humanistləşdirilməsi kökündə yeni pedaqoji sistem – əməkdaşlıq pedaqogikası yaradıb" [Əlizadə Ə., 2010].

## Nəticə / Conclusion

Fiziki tərbiyənin tədrisində motivasiya və problem situasiyanın yaradılması, əməliyyat mərhələsində idrakı, eləcə də hərəki fəaliyyətin aktivləşdirilməsi, qiymətləndirmənin obyektivliyə və maarifləndirməyə yönəlməsi interaktiv təlimin təşkili mexanizmini əhatə etməklə yanaşı, həm də kiçikyaşlı məktəblilərin fiziki tərbiyə prosesinin səmərəliliyini təmin edir.

Problemə vacib bilik və bacarıqları mənimsəmiş, müstəqil nəticə çıxarma, fikir söyləmə, əsaslandırma bacarığına malik nəslin tərbiyəsi baxımından yanaşsaq, kiçik yaşlı məktəblilərin fiziki tərbiyə üzrə işinin nəzəriyyəsi və praktikasının milli zəmində yeniləşdirilməsi, təlimdə innovativ metodlardan istifadə zərurətə çevrilərək aşağıdakı sosial-pedaqoji amillərlə şərtlənir:

1) fiziki tərbiyə prosesində tədris idrakı-fiziki fəaliyyət motivlərini aktivləşdirərək bilik və bacarıqların mənimsədilməsi, vərdişlərin aşılanması, eləcə də fiziki inkişafın və hərəki qabiliyyətlərin yüksəldilməsi ilə kiçikyaşlı məktəblilərin fiziki tərbiyə təliminin rasionallığının yüksəldilməsi;

2) fiziki tərbiyə üzrə məzmunu milli-mədəni, ənənəvi dəyərlər zəminində

təmin etməklə cəmiyyətin ehtiyac və dövlət maraqlarının ödənilməsi, fiziki fəaliyyətlərin və intellektual səviyyənin yüksəldilməsi, eyni zamanda təlim nəticələrinin idrakı bacarıq və psixomotor fəaliyyətlərlə uyğunlaşdırılması əsasında kiçik məktəbyaşlı uşaqların fiziki tərbiyə prosesinin səmərəliliyinin təmin olunması;

Fiziki tərbiyənin təlimində idrakı-fiziki fəaliyyətin aktivliyinin təsiri altında təhsil-tərbiyəvi, mənəvi-əxlaqi, etik-estetik və iradi keyfiyyətlərin, sağlamlığın, əməyə, Vətənin müdafiəsinə hazırlığın reallaşdırılması kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsinin tədrisində başlıca şərtlərdəndir.

**Məqalənin aktuallığı.** Məsələyə milli təhsil istehsalatı baxımından yanaşsaq, böyüməkdə olan gənc nəslin sağlamlığının möhkəmləndirilməsi, gigiyena mədəniyyətinin formalaşdırılması, fiziki tərbiyə vasitələrinin milli zəmində zənginləşdirilməsi, onların fiziki inkişafının təmin olunması, fiziki hazırlığının yüksəldilməsi və s. fiziki tərbiyənin qarşısına mühüm vəzifə kimi qoyulmuşdur. Bütün bunların reallaşdırılmasında fiziki tərbiyənin səmərəliliyinin yüksəldilməsi başlıca şərtdir. Bunun üçün fiziki tərbiyə üzrə zəruri bilik və bacarıqların mənimsədilməsi, vərdişlərin aşılanması, fiziki qabiliyyətlərin inkişaf etdirilməsi vacib əhəmiyyət kəsb edir. Həmin fiziki qabiliyyət və keyfiyyətlərin qazanılması isə müasir təhsil mühitinin yaradılmasından mühüm dərəcədə asılıdır. Bu məsələdə fiziki tərbiyə dərslərinin fəal və interaktiv metodlarla təşkilində yeni pedaqoji-psixoloji stimullaşdırıcı amillərin fiziki tərbiyədə tətbiqi başlıca şərtdir. Daha konkret desək, fiziki tərbiyənin tədrisində pedaqoji komponentlərlə bərabər, idrakı-fiziki fəaliyyətlərin yüksəldilməsi, motivasiya, bərabərhüquqlu, ədalətli olmaq və psixomotor fəaliyyətlərin tənzimlənməsi və s. psixoloji amil olaraq dəyərləndirilməlidir. Bunlar məktəblilərin təlimə şüurlu və fəal yanaşmasına, müstəqil hərəkət etmə və nəticə çıxarmasına, tədqiqatçılıq, tətbiqetmə qabiliyyətinin inkişafına zəmin yaradır. Göstərilənlər eyni adda tədqiqat işinin aparılmasını zərurətə çevirmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə fiziki tərbiyə prosesinin fəal (interaktiv) metodla təşkili üçün zəruri olan innovativ yanaşmaların istiqamətləri aşkara çıxarılır. Xüsusilə, kiçik məktəbyaşlı uşaqların fiziki tərbiyəsinin tədrisində şüurlu mənimsəməyə nail olunmasına və aktivliyi sürətləndirən metod və formalara aydınlıq gətirilir. Bundan əlavə fiziki tərbiyədə tədrisin motivasiya, problemli situasiya mərhələsinin məktəblilərin maraq və tələbatlarına uyğun qurulması əməliyyat mərhələsində onların tədris idrakı-fiziki fəaliyyət motivlərinin yaradılması, qiymətləndirmə-refleksiv mərhələsində isə reallıq və obyektivliyin təmini imkanları və yolları müəyyənləşdirilir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədən ibtidai sinif və ixtisas müəllimləri fiziki tərbiyə təliminin interaktiv (fəal) metodla təşkilində, sinif müəllimi hazırlayan təhsil fakültələrində, seminar, kurs və treninqlərdə, dərslik, dərs və

metodik vəsaitlərin tərtibində istifadə oluna bilər. Eyni zamanda pedaqoji universitetlərin fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimi hazırlayan müəllim heyəti, tələbə və magistrantları da faydalana bilər.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Asadpour, K.M. (2012). Təlimin səmərəliliyinin yüksəldilməsində müasir pedaqoji texnologiyalardan istifadənin imkanları və yolları (pedaq. fəls.dokt. dissert.). Bakı, 144 s.
2. Əhmədov A., Abbasov Ə. (2008). Kurikulumların hazırlanması və tətbiqi məsələləri (metodik tövsiyə). Bakı, "Kövsər" , 224 s.
3. Əlizadə Ə.Ə. (2010). Pedaqoji psixologiya (dərslik). Bakı, ADPU, 288 s.
4. Cəbrayılov İ.H. (2016). Müasir təhsilə innovativ yanaşmalar. Bakı, ARTİ-nin Təhsil Texnologiyaları Mərkəzi, 250 s.
5. Cəbrayılov İ.H. (2016). Müasir təhsilin nəzəri və praktik problemləri. Bakı, "Şahin MMC", 250 s.
6. Mehrabov A.O, Mahmudov M.C. (2013). Təhsilin modernləşdirilməsinin aktual problemləri. Bakı, "Mütərcim", 412 s.
7. Ahmadov H.H. (2014).The Strategy of Education Development in Azerbaijan. Saarbrücken, Deutschland / Germany. LAP LAMBERT Academic Publishing, 245 p.